

İspaniya şirkəti yeni ixtirası ilə dünən mavi şərab istehsalçılarını silkələyib.

Trend xarici KİV-ə istinadən xəbər verir ki, "Gïk Blue" adı verilən şərablar dünyada ilk belə istehsaldır.

Şərabın yaradıcılarından olan Aritz Lopez ideyasını reallaşdırmaq üçün Bask Universitetinin kimyaçılarından yardım alıb.

Şərabda mavi rəngi almaq üçün onlar təbii üsuldan istifadə ediblər. "Gïk Blue" qırmızı və ağ üzümlərin müxtəlif növlərinin iki orqanik piqmentindən alınır: qırmızı üzümün qabığındakı antosiyanin və qırmızı-mavi qida boyası olaraq istifadə edilən, indigotin adlı orqanik birləşmələrdən.